# NAFTALAN




*Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı*

*www.naftalan-ih.gov.az*

Qəzet 1992-ci ilin fevral ayından nəşr edilir • № 17 (413) • 15 dekabr 2019-cu il • Qiyməti 30 qəpik


## V.V.NOVRUZOVUN NAFTALAN ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI TƏYİN EDİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI



Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Vahid oğlu Novruzov Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 4 dekabr 2019-cu il.**

## BEŞİNCİ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BURAXILMASI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ NÖVBƏDƏNKƏNAR SEÇKİLƏRİN TƏYİN EDİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717 VQR nömrəli Qərarını və "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun 2019-cu il 4 dekabr tarixli Qərarını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsini və 109-cu maddəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi buraxılsın.
2. Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2020 - ci il fevralın 9-na təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 dekabr 2019-cu il.**

# Kadr islahatları davam etdiriləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı, Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib.**



AZƏRTACxəbər verir ki, görüşdə çıxış edən P**rezident İlham ƏLİYEV** dedi:

-Bu gün mən sizi icra başçısı vəzifəsinə təyin edirəm. Rüstəm Xəlilov Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Bu, böyük etimaddır. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ölkəmizdə köklü islahatlar aparılır. Bu islahatlar demək olar ki, bütün sahələri əhatə edir. İqtisadi sahədə, maliyyə sektorundakı islahatlar, şəffaflıqla bağlı olan tədbirlər artıq öz gözəl nəticələrini verməkdədir. Mənə verilən məlumata görə, bu ilin 11 ayında təkcə vergi və gömrük orqanları büdcəyə plandan əlavə 934 milyon manat vəsait daxil etmişlər. Bunun da başlıca səbəbi kadr islahatıdır. Çünki həm vergi, həm gömrük orqanlarında köklü kadr dəyişiklikləri həyata keçirildi, yeni rəhbərlər təyin edildi. Beləliklə, nəticə də göz qabağındadır.

Ona görə, struktur islahatları ilə bərabər, kadr islahatları da aparılır. Struktur islahatlarına gəldikdə, cəmiyyət bu islahatları yüksək qiymətləndirir. Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yeni strukturları təsdiq edildi, Milli Məclis yenidən formalaşacaq. Bütün bunların bir məqsədi var: ölkəmizin uğurlu inkişafını təmin etmək, ölkədə mövcud olan gözəl ab-havanı qoruyub saxlamaq, gənc peşəkar kadrlara imkan vermək ki, onlar özlərini göstərsinlər. Ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara cavab verməlidir.

Ölkəmizin uğurlu inkişafı danılmaz həqiqətdir. Bütün mötəbər beynəlxalq qurumlar bunu qeyd edir. Ölkəmizin çox gözəl beynəlxalq imici vardır. Təkcə oktyabr-noyabr aylarında ölkəmizdə baş vermiş hadisələr, keçirilmiş mötəbər tədbirlər onu göstərir ki, Azərbaycanın beynəlxalq nüfuzu nə qədər yüksəkdir və nə qədər beynəlxalq dəstək göstərilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürmüşdür. Qoşulmama Hərəkatının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və 120 ölkənin dəstəyi ilə biz bu təşkilata sədr seçilmişik və üç il ərzində sədrlik edəcəyik. Dünya dini liderlərinin Zirvə Görüşü Azərbaycanda keçirilib və 70 ölkədən gəlmiş nümayəndələrin hər biri qeyd edirdi ki, Azərbaycan bu sahədə dünyada aparıcı rol oynayır.

Bizim apardığımız kadr və struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir.

Kadr islahatları davam etdiriləcək. Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır. Ona görə təyin edilmiş bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər. Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz.

Rüstəm Xəlilov uzun illər Milli Məclisin deputatı kimi fəaliyyət göstərir. Əvvəlki dövrlərdə də böyük təcrübə toplamışdır. Əminəm ki, Hacıqabul rayonunda bu təcrübəni tətbiq edəcək və rayonun inkişafına töhfə verəcəkdir. Vüqar Novruzov gənc kadrdır və bir müddət Prezident Administrasiyasında işləyib, indi isə Xəzər rayonunda icra hakimiyyətinin müavini kimi işləyir. Yəni, bugünkü təyinat da mənim dediyim sözlərin təsdiqidir: təcrübə və gənclərin novatorluğu. Bax, bu sintez həm cəmiyyətdə mövcud olmalıdır, möhkəmlənməlidir, həm də iqtidar komandasında və bütün idarəetmə strukturlarında. Təcrübəli kadrların bilikləri, hazırlığı, eyni zamanda, gənclərin novatorluğu, dinamizmi, yeniliklərə meyilliliyi - bu prinsiplərin vəhdəti uğurlu inkişafımızı bundan sonra da şərtləndirəcəkdir.

**Ardı 2-ci səhifədə**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı şəhər ağsaqqalları ilə görüşüb



5 dekabr 2019-cu il tarixdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzov şəhər ağsaqqalları ilə görüşüb. Görüşdə elm, səhiyyə, mədəniyyət və digər sahələri təmsil edən ağsaqqal ziyalılar iştirak edib.

İcra başçısı ölkə başçısının xüsusi diqqəti sayəsində Respublikamızın bütün bölgələri kimi Naftalan şəhərinin də son illər sürətli inkişaf yolu keçdiyini və şəhərin əvvəlki illərlə müqayisədə tanınmaz dərəcədə dəyişdiyini qeyd edib. Vurğulanıb ki, turizmin inkişafı ilə yanaşı şəhərin bütün infrastrukturu yenilənib. Bir sıra işlərin də tez bir zamanda həyata keçirilməsi üçün müvafiq tədbirlər görüləcək.

Həmçinin şəhər rəhbəri şəhərin ağsaqqalları - zəngin həyat və iş təcrübəsi, əhali arasında hörmətə malik şəxslərlə görüşməyin çox xoş olduğunu bildirərək qeyd edib ki, fikir mübadiləsi etmək, məsləhət və təkliflərini öyrənmək işimizə ancaq müsbət təsir göstərəcək. İnsanların sosial həyatının yaxşılaşması və şəhərimizin dünya səviyyəli sanatoriya-kurort mərkəzinə çevrilməsi məqsədilə var qüvvəmiz ilə çalışmalıyıq.

Ağsaqqallar şəhərin bəzi küçələrinin asfaltlaşdırılması və yolların genişləndirilməsi, yeni xeyir-şər evinin tikintisi, yaşıllıqların qorunub saxlanılması, Qələbə parkının işıqlandırılması və elektrik təsərrüfatında yarımçıq qalmış işlərin başa çatdırılmasını və sair həlli vacib hesab olunan məsələlərlə bağlı təkliflərini bildiriblər.

Görüşdə çıxış edən ağsaqqallar Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi münasibəti ilə təbrik edib, ona işlərində uğurlar arzulayaraq şəhərin inkişafı üçün daima yanında olacaqlarını və əllərindən gələn köməkliyi göstərəcəklərini qeyd ediblər.

Görüşün sonunda ağsaqqallar tərəfindən irəli sürülən təkliflərlə və qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyəti üzrə müvafiq tapşırıqlar verilib.

Tədbirdə çıxış edən Sədrəddin Muradov, Hatəm Qocayev, Köçəri Əhmədov və başqaları ölkəmizin hər bir bölgəsində olduğu kimi, Naftalan kurort şəhərində də görülən işlərə görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

**REDAKTORDAN**

# Kadr islahatları davam etdiriləcək

Əvvəli 1-ci səhifədə

Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud bütün olan problemləri, ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər ki, sizin fəaliyyətinizdən asılıdır, onları özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır və bu, sizin iş qrafikinizdə prioritet məsələ olmalıdır.

İşsizliklə bağlı problemlər bütövlükdə Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edir. Ancaq mən bunu dəfələrlə demişəm, bəzi qonşu ölkələrdən fərqli olaraq bizim əhalimiz artır. Azərbaycan Cənubi Qafqazda yeganə ölkədir ki, əhali artır və sovet dövründən sonra - müstəqillik illərində təqribən 30 faizə yaxın artıbdır, 7 milyondan 10 milyona çatıbdır. Bütün bunlar, əlbəttə, tələb edir ki, yeni iş yerləri yaradılsın. İş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə icra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyaları cəlb etməlidirlər ki, yerli istehsal artsın və işsizlik daim aşağı səviyyədə olsun.

Hacıqabul rayonunun potensialının inkişafı üçün mənim göstərişimlə Hacıqabul sənaye zonası yaradılır. Bu zonanın böyük potensialı olacaqdır və orada xüsusi güzəştlər rejimi tətbiq ediləcəkdir. Bilirəm ki, bu, sahibkarlar tərəfindən də yüksək qiymətləndirilir. Belə təcrübə artıq var, həm Sumqayıtda, həm Neftçalada, Masallıda, digər şəhər və rayonlarımızda. Mingəçevirdə sənaye zonaları yaradılıbdır və yaradılır. Ona görə sənaye zonasının fəaliyyətinə böyük diqqət verilməlidir. Digər layihələr, o cümlədən kənd təsərrüfatının inkişafı ilə bağlı olan layihələr icra edilməlidir. Kənd təsərrüfatında məhsuldarlığın artımı gündəlikdə duran əsas məsələlərdən biridir. Hesab edirəm ki, bu il biz rekord göstəriciyə nail olmuşuq. Taxılçılıqda orta məhsuldarlıq hər hektardan 32 sentner olubdur. Bu, son illər ərzində ən yüksək nəticədir və daha da artacaq. Pambıqçılıqda hələ ki, yığım başa çatmayıb, az qalıb, amma artıq hektardan 29 sentner pambıq götürmüşük. Pambıqçılar yaxşı bilirlər ki, Azərbaycan tarixində cəmi üç, ya dörd il məhsuldarlıq 30 sentnerə yaxın, yaxud da ondan çox olmuşdur. Onlardan biri də 2019-cu ildir. Ona görə kənd təsərrüfatı, xüsusilə indi, - əlbəttə, bu, Hacıqabul rayonuna aiddir, - inkişaf etməlidir.

Naftalan şəhərini müasir kurort mərkəzinə çevirmək cəhdlərimiz, hesab edirəm ki, çox uğurludur. Mən Prezident kimi ilk dəfə Naftalana gələndə ürəyim ağrıdı, çünki gördüm, demək olar ki, şəhər dağılmış vəziyyətdədir. İnfrastruktur yox, işıq yox, qaz yox, su yox, yollar bərbad. Sovet vaxtında tikilmiş sanatoriyalar dağılmış və şəhərdə minlərlə köçkün məskunlaşmışdı, onların da vəziyyəti çox ağır idi. Ona görə göstəriş verdim və tapşırdım ki, vəsait ayrılsın. İlk növbədə, biz köçkünləri köçürdük və onlar üçün gözəl evlər tikdirdik. Ondan sonra investorları cəlb etdik və onlar investisiya qoymağa başladılar. Bununla paralel olaraq, Naftalan şəhərindəki bütün hündürmərtəbəli binalar əsaslı şəkildə təmir olundu, yeni parklar salındı, mərkəzi şəhər xəstəxanası, beşulduzlu üç otel - "Çinar", "Qarabağ" və "Qaşaltı" açıldı. Bütün açılışlarda mən şəxsən iştirak etmişəm. Hazırda dördulduzlu və üçulduzlu otellərin tikintisi davam etdirilir. Sovet vaxtında Naftalana hər il müalicə üçün 70 min adam gəlmişdi. Biz indi bu hədəfə doğru gedirik. Artıq təqribən 30-40 min insan gəlir dincəlməyə və müalicə almağa. Naftalanı beynəlxalq turizm mərkəzi kimi inkişaf etdirmək bizim başlıca vəzifəmizdir. Şəhər İcra Hakimiyyəti bu işlərə böyük diqqət verməlidir. Naftalanda yaşayan vətəndaşların mütləq əksəriyyəti xidmət sektorunda fəaliyyət göstərir.

Bir sözlə, sizə göstərilən bu etimad doğrudan da sizin üçün böyük avansdır. Çünki indiki şəraitdə kadrlara qarşı tələbkarlıq artır. Kadrlar qarşısında çox ciddi vəzifələr qoyulur, xüsusilə pozuntularla bağlı, rüşvətxorluq, korrupsiya sıfır dərəcəsində olmalıdır. İnvestorları incitməməlisiniz, əksinə, onlara kömək göstərməlisiniz, onları cəlb etməlisiniz ki, vətəndaşlar sizin işinizdən razı qalsınlar. Əgər vətəndaşlar razı olsalar, - atalar sözü var, "Xalqın gözü tərəzidir", - mən də razı olacağam və sizin fəaliyyətinizə yüksək qiymət verəcəyəm. Yox əgər mənim etimadımı doğrultmasanız, onda sizi çox ciddi cəza gözləyir. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və müasir dövrün tələblərinə cavab verərək rəhbərlik edəcəyiniz Naftalan şəhərinin, Hacıqabul rayonunun inkişafına öz töhfənizi verəcəksiniz.

# Naftalanda Azərbaycanın dahi şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 3000 ağac əkildi

**Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən bu aksiya çərçivəsində bir gündə ölkəmizdə 650 min ağac əkilib**

Azərbaycanın dahi şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü ilə 6 dekabr 2019-cu il tarixdə respublikamızda, o cümlədən Naftalan şəhərində Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzovun iştirakı ilə genişmiqyaslı ağacəkmə aksiyası keçirilib.

Şəhər sakinləri yaşıllıqların artmasına töhfə verəcək və ekoloji mühitin yaxşılaşdırılmasına yönəlmiş bu nəcib təşəbbüsə həvəslə qoşulublar.



Aksiya şəhərin Ş.Qurbanov, Z.Tağıyev, İmadəddin Nəsimi küçələrində, Ş.Qurbanov küçəsi ilə Z.Tağıyev küçələrinin kəsişməsində, Şirvan prospektində və Səməd Vurğun parkında keçirilib. Milli ruhda musiqi nümunələrinin səsləndirildiyi aksiyada şəhərdə fəaliyyət göstərən idarə, müəssisə və xidmət təşkilatlarının kollektivləri tərəfindən, ümumilikdə 3000 ədəd eldar şamı, tuya və çinar ağacı əkilib. Əkilən ağaclar insanların sağlamlığına müsbət təsir göstərməklə yanaşı, kurort şəhəri Naftalanın ümumi mənzərəsinə yeni çalarlar əlavə edib.

Şəhər rəhbəri əkilən ağacların mühafizəsi və onlara mütəmadi qulluq göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu il "Nəsimi ili" elan olunub.

**REDAKTORDAN**

# Naftalan şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov vətəndaşlarla ilk qəbulunu keçirdi



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzov dekabrın 9-da vətəndaşlarla ilk qəbulunu keçirib.

Şəhər sakinlərinin, idarə, təşkilat və xidmət sahələri rəhbərlərinin iştirakı ilə keçirilmiş ilk qəbulda müxtəlif sosial kateqoriyalardan olan 40 nəfərədək vətəndaşın müraciəti dinlənilmişdir.

Sakinlər tərəfindən səsləndirilmiş müraciətlər müxtəlif sahələri əhatə etmiş və hər bir problemin həllinə fərdi olaraq yanaşılmışdır.

Dinlənilmiş çoxsaylı müraciətlərin bir qismi yerində həllini tapmış, digər müraciətlər isə qeydiyyata alınaraq nəzarətə götürülmüş və tez bir zamanda həlli ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə və məsul şəxslərə müvafiq tapşırıqlar verilmişdir.

Sonda şəhər rəhbəri respublikada aparılan sosial-iqtisadi islahatlardan,cənab Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrdən və Naftalan kurort şəhərinin daha da inkişafı üçün görüləcək işlərdən söz açıb.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vətəndaşların xüsusi olaraq diqqətinə çatdırmışdır ki,sakinlərin qaldırdıqları hər bir problemə diqqətlə yanaşılacaq, onların həlli üçün qəti qərarlar qəbul ediləcəkdir.

Qəbula gələn sakinlər Naftalana və naftalanlılara göstərdiyi dəstək və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını ediblər.

# 12 DEKABR ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR



***Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm ki, mən azərbaycanlıyam. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni var. Hər bir azərbaycanlı da buraya ata ocağı kimi baxmalıdır.***

**Heydər ƏLİYEV**
**Ümummilli Lider**

## ÜMUMMİLLİ LİDER, DÜNYA MİQYASLI SİYASƏTÇİ

**Tarix təsdiq edir ki, şəx- siyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Azərbaycan xalqının da tarixində, taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları olub ki, bu şəxsiyyətlər gördükləri böyük işləri və əməlləri ilə yadda qalıb, unudulmayıblar. Bu şəxsiyyətlər arasında müasir Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin özünəməxsus yeri vardır.**

Təhlükəsizlik orqanları sistemində çalışan, 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləyən, general-mayor rütbəsinə qədər yüksələn Ulu Öndər Heydər Əliyev 1969-cu il iyul plenumunda Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilib. SSRİ-nin rəhbərlərindən biri olan Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və baş katib Mixail Qorbaçovun yeritdiyi yanlış siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verib. Sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Ulu Öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. Ulu Öndər Heydər Əliyev Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı, SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etməsi də xalqın yaddaşındadır və yüksək qiymətləndirilir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu, xilaskar, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalıb.

Ulu Öndər Heydər Əliyev təkcə Azərbaycanın deyil, dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi və bu bacarıq onda fitrən olub. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş İttifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri olan lider idi və O, beynəlxalq səviyyədə düşünməyi, təhlillər aparmağı hamıdan yaxşı və yüksək səviyyədə bacarırdı. Ulu Öndər Heydər Əliyev, məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi kimi, əbəs yerə deyildi ki, xarizmatik lider, fenomenal şəxsiyyət adlandırılıb. Universal bilik, qətiyyət, işgüzarlıq, qeyri-adi yaddaş, tükənməz səbr, müsahibini təmkinlə dinləmək bacarığı, uzaqgörənlik, müdriklik kimi keyfiyyətlər Ulu Öndərə məxsus idi və bu səbəbdən də, Onu bütün dünya fenomenal və xarizmatik dahi kimi qəbul edirdi. Ümummilli Liderin atdığı addımlar, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi ətrafdakıları heyrətləndirirdi və bu baxımdan, Onun siyasət aləminin patriarxı adını qazanması belə, heç də təsadüfi deyildi. Dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdiklərini, Ondan öyrəndiklərini dönə-dönə etiraf da edirdilər. Siyasətçilər bu dahi insanı "liderlərin lideri" adlandırmaqda, həqiqətən, haqlıdırlar.

Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırdığı, hərtərəfli inkişafı təmin etdiyi, müstəqilliyi əbədi və dönməz etdiyi günün reallığıdır. Azərbaycan Ulu Öndər Heydər Əliyevin uğurlu siyasəti sayəsində, dünyada tanınan nüfuzlu bir dövlətə çevrilib. Müstəqil Azərbaycan Respublikasının 1993-cü ildə Prezidenti seçilən Heydər Əliyev, qısa bir müddət ərzində çox güclü, səriştəli, təcrübəli fəaliyyəti sayəsində, xarici siyasət sahəsində də böyük dönüş yaratdı. Məhz bu baxımdan da, dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. Ən çətin anlarda belə milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi anti-Azərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrilən Ulu Öndər Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirirdi. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu dahi insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi olaraq, reallığa çevrildi və bu gün ölkəmiz bunun bəhrəsini görməkdədir.

Bu gün ölkəmiz Ulu Öndərin bu siyasətinin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı Ümummilli Liderin layiqli siyasi varisi və davamçısı Prezident İlham Əliyevdir. Onun rəhbərliyi ilə Ulu Öndər Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Çünki Ulu Öndər Heydər Əliyev siyasəti Azərbaycanı dinamik şəkildə işkişaf etdirir və yalnız gələcəyə istiqamətləndirir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub-saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə, artıq sınaqdan çıxıb və öz təsdini tapıb.

2003-cü il oktyabrın 15-də keçiriləcək prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Ulu Öndər Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina edib və ABŞ-ın Klivlend klinikasında müalicə olunan Ulu Öndər 2003-cü il dekabrın 12-də dünyasını dəyişib. Məhz həmin gündən dekabrın 12-si xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günüdür.

**Elman ALIYEV,**
**Heydər Əliyev Mərkəzinin direktoru**

## Ümummilli Lider Heydər Əliyevin anım günü Naftalan şəhərində qeyd edildi



Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan Respublikasının qurucusudur və bu gün ölkə beynəlxalq təşkilatların qiymətləndirilmələrinə əsasən innovativ idarəçilik texnologiyalarının işlənilməsi və tətbiqinə görə dünya liderləri sırasındadır.

Ümummilli Lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar Naftalanda ümumşəhər tədbiri keçirilib. Tədbirdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzov, Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, idarə, müəssisə, təşkilat, hüquq mühafizə orqanlarının rəhbərləri və nümayəndələri, eləcə də şəhər ictimaiyyəti iştirak ediblər.

Tədbir iştirakçıları öncə Ulu Öndərin xatirəsinə ucaldılmış abidəni ziyarət edib və abidənin önünə gül-çiçək dəstələri düzüblər. Sonra Heydər Əliyev Mərkəzini ziyarət edərək Ulu Öndərin həyat və siyasi fəaliyyətini əks etdirən fotostendlərlə tanış olublar. Tədbirdə Naftalan Şəhər İmadəddin Nəsimi adına 1 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında "Həmişə yaşar Dahi" adlı kompozisiya nümayiş etdirilib.



Anım tədbiri çərçivəsində Ulu Öndərin əziz xatirəsinə şəhid ailələri və aztəminatlı ailələr üçün ehsan süfrəsi açılıb.

Mərasimdə şəhər rəhbəri Ümummilli Liderin keçdiyi şərəfli həyat yolundan və fəaliyyətindən, onun layiqli davamçısı cənab Prezidentimiz İlham Əliyev tərəfindən dahi şəxsiyyətin ideyaları və siyasi kursunun həyata keçirilməsi, ölkəmizin güclənməsi və daha da inkişaf etməsi istiqamətində reallaşdırılan layihələrdən ətraflı danışıb.

Mərasimə qatılanlar Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixi və dövlətçiliyi qarşısında misilsiz xidmətlərindən danışmış, ona Tanrıdan rəhmət diləmişlər.

**Aytən ƏLİYEVA,**
**“Naftalan” qəzetinin redaktoru**



# Naftalan şəhərinin turizm inkişaf planı təqdim olunub



Naftalan Şəhər İcra Hakimiyyəti, Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun birgə təşkilatçılığı ilə Naftalan şəhərinin turizm inkişaf planı təqdim olunub.

Təqdimatda Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzov, Dövlət Turizm Agentliyinin sədri cənab Fuad Nağıyev, Azərbaycan Turizm Bürosunun sədri cənab Floraian Sengstschimid və məsul şəxslər iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzərək Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.Sonra qonaqlar Heydər Əliyev Mərkəzində olub, Ümummilli Liderin həyat və siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən fotostendlərə baxıblar.

Naftalan Şəhər İcra Hakimiyyətinin akt zalında davam edən tədbiri Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzov açaraq Naftalanın turizm potensialı və şəhərdə fəaliyyət göstərən sağlamlıq və istirahət mərkəzləri barədə ətraflı məlumat verib.

Bildirib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra, xüsusən də son illər respublikanın bütün şəhərləri kimi, Naftalan da öz inkişafının yeni mərhələsini yaşayır. Bu inkişafın təməlində Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasət dayanır. Sahibkarlığın inkişafı ölkə rəhbərliyi üçün həmişə prioritet məsələlərdən olub. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkədə turizm, mədəniyyət və incəsənətə verdiyi dəyər də bizə stimul verir ki, biz daha yaxından bu işlə məşğul olaq.

Hazırda şəhərdə üçü 5 ulduzlu olmaqla 12 sanatoriya fəaliyyət göstərir. Eyni zamanda tikintisi başa çatdırılmış yeni Avtovağzal Otel Kompleksi, "Naftalan Hotel & Spa" və tikintisi davam etdirilən 3 yeni hotel-sanatoriya yaxın vaxtlarda şəhərin turizm potensialına öz töhfəsini verəcək.

Qeyd edib ki, Naftalan turizmdən gələn gəlirlər hesabına 2016-ci ildən öz gəlirləri hesabına ödənilən 6 rayon və şəhərlərin siyahısına daxil edilib. Cari ildə şəhərə 37 minə yaxın turist gəlib ki, onların da 11 mindən çoxu dünyanın 61 ölkəsinin vətəndaşı olub.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzov vurğulayıb ki, Turizm Agentliyinin bu işə qoşulması həm şəhərdə turizmin inkişafında, həm də ümumilikdə Azərbaycana gələn turistlərin sayında mühüm rol oynaya bilər.

Tədbirdə çıxış edənlər bildiriblər ki, müalicəvi Naftalan nefti ilə sağlamlıq turizmi istiqamətində inkişaf etmiş şəhəri müasir kurort mərkəzinə çevirmək və beynəlxalq turizm mərkəzi kimi inkişaf etdirmək qarşıdakı əsas vəzifələrdəndir.

Tədbir çərçivəsində Azərbaycan Turizm Bürosunun tabeliyində fəaliyyət göstərən Gəncə Destinasiya Menecmenti Təşkilatının Naftalanda təsis edilmiş nümayəndəliyinin də təqdimatı olub. Sonra qonaqlar Garabag Resort & SPA otelinə gedərək burada naftalan nefti ilə aparılan müalicə prosedurları ilə yaxından tanış olublar.

**REDAKTORDAN**

# Qadınların və qocaların tütünə aludəçiliyinin təhlükəsi!

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə tütün tüstüsü qadınlara kişilərə nisbətən ikiqat mənfi təsir göstərir.

Hamilə qadınlarda isə tütünçəkmə daha açınacaqlı fəsadlar törədir. Əgər hamilə qadın tütün çəkirsə və yaxud tütün çəkən şəxsin yanında tüstünü mütəmadi olaraq passiv şəkildə qəbul edirsə, hormanlara güclü təsir edən zəhərli maddələr onun gələcəkdə dünyaya gətirəcəyi körpənin orqanizminə daxil olur və formalaşmaqda olan orqanizmdə bir çox xəstəliklərin yaranmasının başlanğıcı olur.

Hamilə qadınların hələ doğulmamış uşaqları ana bətnində zərər çəkir. Zəif uşaqların doğumu, hətta ölü doğuşların ehtimalı artır. Tütün çəkən qadın uşağı əmizdirən zaman nikotin ana südü vasitəsilə körpəyə keçir.

Tütünçəkmə hamıya olduğu kimi, yaşlı insanlara da mənfi təsir göstərir. Onların bədənlərində olan hüceyrələrin zəifləməsini sürətləndirir, yuxusuzluq, taqətsizlik və digər problemlərin yaranmasına şərait yaradır. Tütün çəkən yaşlı adamlar, adətən, əsəbi olur, hər şeyə emosional yanaşırlar. Dərideki qırışların çoxalması, dişlərin tökülməsi kim hallar daha tez baş verir.

**Gilə İsmayılova,**
**Naftalan şəhər Gigiyena və Epidemiologiya Şöbəsində həkim-gigiyenist**

# Dəm qazından ehtiyatlı olun !

Havaların soyuması ölkə əhalisinin qaza olan tələbatını xeyli artırmışdır. Son zamanlar qaz cihazlarının istismarı zamanı insanlar arasında dəm qazından zəhərlənmə halları qeydə alınmaqdadır. Müəyyən olunub ki, bu halların əksəriyyəti vətəndaşların təhlükəsizlik qaydalarına riayət etməməsi səbəbindən baş verir.

Dəm qazından zəhərlənmə halı yanğın olduqda, sobanın qapağı erkən bağlandıqda, qarajda, qapalı məkanda avtomobil mühərriki işlədikdə, ağzı bağlı kabinədə uzun müddət qaldıqda baş verir.Mənzillərdə isə dəm qazından zəhərlənmə təhlükəsi əksər hallarda evi qızdırıcı cihazlarla qızdırarkən və ya hamam otağında baş verir.

Dəm qazından zəhərlənmə zamanı bu simptomlar özünü biruzə verir: yaşaran gözlər, başağrısı, başgicəllənmə müşahidə olunur. Getdikcə zəiflik, ürəkbulanması, quru öskürək, hafizənin keyləşməsi, eşitmə və görmə hallusinasiyaları başlayır. Qıcolma tutmaları və nəhayət, tənəffüs mərkəzinin iflici nəticəsində ölüm baş verir.

Mənzildə dəm qazı təhlükəsinin qarşısının alınması üçün bir sıra qaydalara riayət edilməlidir. Yadda saxlayın ki, evinizdə qeyri-standart, yeni kustar üsulla hazırlanmış cihazların quraşdırılması və istifadəsi, həmçinin qızdırıcı cobaların həddindən artıq qızmasına yol verilməsi, həmin cihazların istismarını azyaşlı uşaqlara həvalə edilməsi, yanar vəziyyətdə olan qızdırıcıları nəzarətsiz qoyulması çox təhlükəlidir.









Mənzildə qızdırıcı cihazların havaçəkmə borularının düzgün işləməsinə nəzarət edilməlidir. Unutmayın ki, qızdırıcı soba ilə mənzilin və ya hamamın ölçüsü uyğun gəlməlidir.Misal üçün, mətbəx həddindən artıq kiçikdirsə və orada olan ventilyasiya sistemi quraşdırılmayıbsa, böyük ölçüdə qaz pilətəsi qoymaq olmaz.Eyni qayda hamam otağına da aiddir. Kiçik hamam otağına böyük ölçülü suqızdırıcının qoyulması təhlükəlidir. Cihazın borusunun çıxış yeri olmalıdır. Zəruri ventilyasiya sistemi yoxdursa, hamam otağının qapısının aşağı hissəsində hava oynaması üçün dəliklər açılmalı və ya qapalı mühitdə qaz yandırarkən nəfəsliklər açıq olmalıdır.

Otaqlarda quraşdırılmış qızdırıcı sobanın işləməsinə vaxtaşırı fasilə verilməlidir. Bu zaman otaqda havanın dəyişdirilməsi üçün pəncərələr açılmalıdır. Unutmayın ki, mənzil mütəmadi havalanırıldıqda dəm qazından zəhərlənmə riski azalır.

Evinizə soba alarkən onun zəmanət barədə sertifikatı və texniki pasportunun olub-olmamasına diqqət yetirin. Mənzildə qızdırıcı cihazlarını quraşdırarkən mütləq yerli qaz idarəsinin mütəxəssisləri ilə məsləhətləşin. Bu sahədə naşı olan insanların xidmətindən istifadə etməyin. Tüstü borusu olmayan sobaları almayın.

Dəm qazından zəhərlənmə baş verərsə nə etmək lazımdır?

Dəm qazı ilə zəhərlənən insan əksər hallarda özü-özünə kömək edə bilmir. Lakin təcili tibbi yardım gələnədən ətrafdakılar ona ilk yardımı göstərə bilər. Zərərçəkəni dərhal təmiz havaya çıxartmaq, onu kürəyi üstə uzatmaq və yaxalığını açmaq lazımdır. İmkan olduqda oksigen yastıqlarından istifadə edilir. Alın və sinəyə soyuq kompress qoyun. Əgər zərərçəkmişin huşu özündədirsə , o zaman ona isti çay verin.

Dəm qazından yüngül zəhərlənmə olduqda, yeni zərərçəkmiş bu simptomları vaxtında hiss edib məkanı tərk etdikdə, o zaman sadəcə təmiz hava ilə tənəffüs etmək yetərlidir.

Zərərçəkmiş huşunu itiribsə, ona naşatır spirti (olmadıqda sirkə) ilə isladılmış pambıq parçasını iylətmək lazımdır. Zərərçəkmiş nəfəs almırsa və ya tənəffüsü zəifdirsə, ona süni nəfəs verilməli, zərurət olduqda ürək massajı edilməlidir. Zərərçəkmişə yardım göstərilməsi üçün təcili tibbi yardım briqadası çağırılmalıdır. Dəm qazından zəhərlənən insan özünü yaxşı hiss etsə belə, ən azı 24 saat həkim nəzarəti altında qalmalıdır.

Unutmayın ki, hər hansı bir fövqəladə hadisə baş verdikdə "112" qaynar xəttinə müraciət edin.Yadda saxlayın ki, yalnız təhlükəsizlik qaydalarına əməl etməklə baş verə biləcək hər hansı bədbəxt hadisənin qarşısını almaq mümkündür.

**FHN Aran Regional Mərkəzi Maarifləndirmə sektoru**

REDAKTOR:
Əliyeva Aytən Həbib qızı

Qəzet ayda bir dəfə çıxır

Ünvan: Naftalan şəhəri, Şıxəli Qurbanov küçəsi 1.
Telefon: (022) 352-14-55
ayten_aliyeva.1986@mail.ru

Qəzet "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC-də ofset üsulu ilə çap edilmişdir.
Dizayner: Rübabə Mustafayeva

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər
Tiraj: 500